

# Zabit şərəfi ilə şəhid olan kapitan

**Hardansa oxumuşam ki, siyasətçilər, ədəbiyyatçılar, dindarlar xalqın ruhunu formalaşdırır, Vətən üçün ləyaqətlə yaşamağı öyrədir, zabitlər isə Vətən naminə necə ləyaqətlə ölməyi öyrədirlər.**

Azərbaycan Ordusunun qəhrəman kapitanı şəhid Cəlil Cavadov da bu şərəfli zabitlərimiz sırasında yeri olan oğullardan biridir. Bu yazıda da 44 günlük müharibənin 32 günündə, ən azı, 32 qəhrəmanlıq nümunəsi göstərib zabit adını təsadüfən daşımadığını və bu adın şərəfini ləyaqətlə qoruduğunu tarixə yazan həmin igidimizdən söz açacağam.

Kapitan Cəlil Ağaddin oğlu Cavadov 1989-cu il martın 29-da Lerik rayonunda ziyalı ailəsində anadan olmuşdur. Atası ali təhsilli hüquqşünas Ağaddin Cavadov Lerik rayonunun hörmətli kişilərindən idi. Övladlarına ali təhsil vermək ən böyük arzusu idi. Lakin Ağaddin kişiyə bu istəyini həyata keçirmək nəsib olmadı. Cəlilin 13 yaşı olanda özü və həyat yoldaşı qəfil vəfat edirlər. Ailənin 3 oğul uşağı taleyin amansız hökmü ilə valideynsiz böyüyür.

Cəlilin uşaqlıq illəri rayon mərkəzinə yaxınlıqda yerləşən Xəlifəkücə kəndində keçmişdi. Hər iki valideynini itirən yeniyetmə ömrün erkən vaxtlarından həyatın çətinlikləri ilə üz-üzə qalsa da, əzmkarlığı və qətiyyəti onu sınmağa qoymur.

Orta təhsilinə şəhid Zəfər Səfərov adına Lerik rayon Blaband kənd orta məktəbində başlayan Cəlil 2003-cü ildə 8-ci sinfi bitirib yolunu C. Naxçıvanski adına hərbi liseyə salır. Qəbul olunub, müdavim kimi dərslərə başlayan yeniyetmənin ilk təəssüratları onu hərb sənəti ilə birdəfəlik bağlayır.

Cəlil 2006-cı ildə liseyi müvəffəqiyyətlə bitirərək, Heydər Əliyev adına Ali Hərbi Məktəbə qəbul olunur və motoatıcı ixtisası üzrə təhsilini davam etdirir. Dörd illik ali hərbi təhsil onun bir zabit kimi formalaşmasına və komandir kimi yetişməsinə öz töhfəsini verir. Təcrübəli və müdrik hərbçilər nahaq demirlər ki, zabitin keyfiyyəti onun əslindən, nəslindən, tərbiyəsindən, təhsilindən, xidməti təcrübəsindən irəli gəlir. Cəlilin nəsil şəcərəsində hərbçilər, zabitlər və hərbi xidmət keçmiş insanlar az deyildi. Onun bir dayısı – Aslan Canəli oğlu Hüseynov Azərbaycan Ordusunda xidmət etmiş, idarə rəsi olmuş və polkovnik rütbəsində ehtiyata göndərilmişdi. Digər bir dayısı I Qarabağ müharibəsinin ən qızğın vaxtlarında 4 il erməni işğalçılarına qarşı vuruşmuş, sonra Milli Ordumuzun sıralarında xidmət etmişdir. Əmisi oğlu Anar Cavadov hazırda ordumuzun Xüsusi Təyinatlı Qüvvələrinin polkovnik-leytenantıdır. Qardaşı Cavid Cavadov isə 9 ildən artıqdır ki, hərbi aviasiya qoşunlarında baş gizir kimi xidmət edir.

Cəlil 2010-cu ildən başlayaraq Silahlı Qüvvələrin Təlim-Tədris Mərkəzində bir il ixtisasartırma kursu keçir. Bundan dərhal sonra Ağdam ərazisində dislokasiya olunan "N" saylı hərbi hissəyə tağım komandiri vəzifəsinə təyin edilir. Xidmət müddətinin dördüncü ilində –2014-cü ildə baş leytenant rütbəsi alır və bölük komandiri kimi fəaliyyətə başlayır. İllər bir-birini əvəz etdikcə Cəlil bir zabit kimi daha da püxtələşir, təcrübəsi artır.

Beləliklə, Cəlil həm xidmət keçə-keçə, həm də müasir hərbin sirlərini öyrənə-öyrənə vəzifə pillələrində addım-addım irəliləyirdi. 2016-cı ildə Bərdə rayonunda yerləşən "N" saylı hərbi hissədə qərargah bölüyünün komandiri, 2017-ci ildə Qazax rayonunda yerləşən hərbi hissədə tabor komandirinin maddi-texniki təminat üzrə müavini vəzifələrində xidmət edir. 2018-ci ildə isə Qaradağ rayonunun ərazisində yerləşən "N" saylı hərbi hissədə uçot-əməliyyat bölməsinin rəisi vəzifəsinə təyinat alır.

2020-ci ilin martında baş leytenant Cəlil Cavadov Qusar rayonunda yerləşən "N" saylı hərbi hissədə tabor komandirinin müavini vəzifəsinə təyin olunur. Bir aydan sonra isə komandanlığın əmri ilə ona kapitan rütbəsi verilir. Cəlilin kapitan rütbəsi alması onun tabordakı nüfuzunu daha da artırır. Buna qədər Cəlil artıq komandanlıq tərəfindən nümunəvi xidmətə görə bir neçə dəfə təltif edilir. Az bir vaxtda sinəsini III və II dərəcəli "Qüsursuz xidmətə görə", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" və "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları bəzəyir.

***

"Müharibə başlayan gündən Cəlillə, demək olar ki, bütün döyüşlərdə bir yerdə olmuşuq, – deyə qazi, gizir Əskər Hüseynov söhbətə başlayır,– Cəbhənin ən ağır istiqamətində – Füzuli uğrunda gedən döyüşlərdə o, yüksək əsl döyüş zabiti və cəsarətli komandir kimi özünü göstərdi. Artıq yüksək çinli zabitlər belə onunla hesablaşmağa başlamışdılar. Sonra Hadrut və Cəbrayıl uğrunda gedən döyüşlərdə iştirak etdik".

Onu tanıyan hərbçilər deyirlər ki, müharibədə döyüş təcrübəsi az olsa da, zabit kimi dərin hərbi biliyi, təşəbbüskarlığı və təşkilatçılıq istedadı var idi. İstənilən məqamda hər şeyi duya və nə baş verə biləcəyini qabaqcadan hiss edə bilirdi, əsgər və zabitlərinə son dərəcə inanırdı. Ona görə də 82 və 120 saylı hərbi hissənin şəxsi heyətini də Cəlil eynən bu zabit həssaslığı ilə mühasirədən çıxara bilmiş və şəxsi heyətin itkilərini minimuma endirmişdi.

***

... Qırmızı bazar yüksəkliklərində bir neçə yerdə düşmənin yerləşdiyi strateji mövqeləri ələ keçirmək lazım idi. Şuşaya hücum planını uğurla həyata keçirmək üçün bu mövqeləri düşməndən təmizləmək çox mühüm əhəmiyyət kəsb edirdi. Son dərəcə vacib tapşırıq hesab edilməklə yanaşı, həm də son dərəcə təhlükəli əməliyyat idi. Bura təcrübəli və dağlıq ərazilərdə yetərincə döyüş taktikasını bilən zabit və əsgərlər lazım idi.

Əməliyyatın iştirakçısı olan və qrupun sağ qalan yeganə döyüşçüsü gizir Əskər Hüseynov deyir: "Hərbi hissəmiz sıx bir meşəlikdə mövqe seçmişdi. Oktyabrın 27-də sübh tezdən hərbi hissə komandirinin müavini bizi topladı və əməliyyat tapşırığını açıqladı. Taborun üç qrupundan hər birinə Xocavənd rayonunun Cütçü kəndi ərazisindəki Üçtəpə deyilən strateji yüksəkliyi, nəyin bahasına olur-olsun, ələ keçirmək və orada möhkəmlənmək lazım idi.

Hərbi hissə komandirinin müavininin danışığından bəlli olurdu ki, tapşırığın çox mürəkkəb və çətin olduğunu özü də bilir. Çünki bundan əvvəl hərbi hissə komandanlığı tapşırığa çıxan qrupa rəhbərlik edəcək zabiti özü seçib təyin edirdi. Bu döyüş tapşırığına gedən qrupu müəyyənləşdirəndə isə zabitlərə üzünü tutub dedi: "Zabitlərdən biri könüllü çıxıb qrupa rəhbərlik etsin". Buna qədər biz nə hissə komandirindən, nə də onun müavinlərindən belə şey eşitməmişdik.

Hiss etdik ki, bu bizim hər birimiz üçün sonuncu döyüş ola bilər. Çox keçmədən aydın oldu ki, bu, həqiqətən, çox mürəkkəb döyüş tapşırığı imiş. Yenə kapitan Cavadov irəli çıxdı və mənim başçılıq etdiyim qrupa rəhbərliyi öz üzərinə götürdü. Buna bir az arxayınlaşdım. Bu da səbəbsiz deyildi. 44 günlük müharibədə döyüşdüyüm 32 gündə çox komandirlərlə qarşılaşmış və onların necə döyüşdüyünün şahidi olmuşam. Kapitan Cavadovdan çox ürəyimə yatan zabit olmayıb. Çünki Cəlil komandir kimi son dərəcə həssas idi..."

***

Qruplar müəyyən məntəqəyə qədər yolu avtomobillə qət etdikdən sonra piyada yürüşə başlayırlar. Vəziyyətə və şəraitə uyğun olaraq gah gecə, gah da gündüz, iki gün yol qət edib, üçüncü gün səhər tapşırılan yüksəkliklərin ətəklərinə yaxınlaşırlar. "Günorta saat 13-14 radələri olardı, – deyə, Əskər Hüseynov həmin faciəli günü detalları ilə xatırlamağa çalışır. – Meşə massivindən xeyli uzaqlaşmışdıq. Açıq bir sahəyə çıxdıq. Ətrafda daldalanmağa bir yer görünmürdü. Cəlil nəsə şübhəli-şübhəli çevik hərəkətlə ətrafı nəzərdən keçirirdi. Sən demə, düşmən bizi meşədən çıxandan izləyirmiş. Cəlil nəsə demək istəyirdi ki, üç tərəfdən bizi avtomat silahlardan güllə yağışına tutdular. Düşmən üçün asan bir hədəfə çevrilmişdik..."

Kapitan Cavadov adama çıxılmaz vəziyyət kimi görünən şəraitdən belə çıxış yolu tapmağı bacarırdı. Belə məqamlarda o heç vaxt ayıqlığı itirməz və ətrafdakı şəraiti bir göz qırpımında qiymətləndirdikdən sonra öz qərarını verər və hər bir əsgərin tapşırığının nədən ibarət olacağını dəqiqliklə izah edərdi. Amma bu dəfə düşmən məkrli tərpənmiş, kapitan Cavadovun qrupunu tam açıq bir əraziyə qədər izləyərək pusquya salmışdı. Yüksəkdə mövqe tutan düşmən canlı qüvvə baxımından da 4-5 dəfə onlardan üstün idi.

Qrup qəfil pusquya düşdüyündən və ilk yaralananlardan biri də Cəlil olduğundan çıxış yolu aramaq üçün ani bir məqam belə tapılmadı. Əslində, düşmənin bu yaxın ərazidə onları gözləyə biləcəyi və pusquya sala biləcəyi çox müəmmalı idi. Kapitan Cavadovun qrupu anlaşılmaz şəkildə, hərbi dillə desək, torbaya düşmüşdü. Komandir ilk güllə yarasının şokundan ayılanda bunu başa düşsə də artıq gec idi. Düşmənin böyük üstünlüyü və mövqe fərqi açıqaydın vəziyyətin qeyri-bərabər olduğunu göstərdi. Döyüşə girməkdən başqa çıxış yolu yox idi. Belə vəziyyətdə bu, ən doğru və ləyaqətli qərar idi.

Əskər Hüseynov: "Kapitan Cəlil Cavadov hələ yaralı idi. Əslən lerikdən olan İman və Bəhram qardaşları isə artıq şəhid olmuşdular. Könüllülər və daimi heyətdən olanlardan da şəhid olanlar var idi...".

Sağ qalan qrup üzvləri komandirin başını qaldırdığını və döyüşə qoşulduğunu görüb, sanki, yeni bir qüvvə topladılar. 14 nəfərlik qrup 3 saata yaxın böyük düşmən qüvvəsilə qeyri-bərabər döyüş apardı. Sona yaxın atəş səsləri səngiməyə başlayırdı. Kapitan artıq bir neçə güllə yarası almışdı. Çoxlu qan itirdiyindən vəziyyəti çox ağır idi. Silahlar susandan bir neçə dəqiqə keçməmiş Cəlil özünə gəldi. Çətinliklə ətrafa göz gəzdirib əsgərlərini axtardı. Gözünə sağ qalan dəymirdi. Bir saata yaxın vaxt keçəndən sonra düşmənlərin danışıq səsləri gəlməyə başladı. Səslər getdikcə yaxınlaşırdı.

Gizir Əskər Hüseynov: "Kapitanın tərpəndiyini görüb ona tərəf sürünmək istədim. Çoxlu qan itirdiyimdən tərpənməyə taqətim qalmamışdı. Bir də cəhd etdim. Bu məqamda Cəlil avtomata dirənib ayağa qalxdı. Avtomatı qarşıdan gələn 9 erməni döyüşçüsünə tuşlamaq istəyəndə, əks tərəfdən aramsız atəş açıldı..."

... Kapitan Cavadov son nəfəsində də zabit şərəfini qorumaq üçün əlində silah beləcə şəhid olur. Cəsur zabit şəhidliyi ilə də göstərir ki, o bir zabit kimi son nəfəsinə, son damla qanına və son düşüncəsinə qədər Vətəninə sadiqdir. Bax, budur ləyaqətlə yaşamaq, ləyaqətlə xidmət etmək və ləyaqətlə ölmək.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə keçdiyi şərəfli döyüş yoluna görə kapitan Cəlil Ağaddin oğlu Cavadov ölümündən sonra "İgidliyə görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edilib.

***İlqar RÜSTƏMOV, "Xalq qəzeti"***